# HEYDƏR ƏLİYEV İRSİNİN TƏDQİQİNDƏ "HEYDƏR ƏLİYEV: MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR" ÇOXCİLDLİYİNİN ELMİ-BİBLİOQRAFİK GÖSTƏRİCİSİ MÜHÜM İNFORMASİYA RESURSU KİMİ

*Günel BAĞIROVA-HÜSEYNOVA*
*AMEA Əlyazmalar İnstitutunun doktorantı,*
*AMEA Mərkəzi Elmi Kitabxanası, baş biblioqraf*
*Bakı, AMEA, Azərbaycan*
*bagirbeyli_gunel@mail.ru*

***Многотомный научный библиографический указатель «Гейдар Алиев: Наша независимость вечна» как важный информационный ресурс в исследовании наследия Гейдара Алиева.***

***Резюме:****В статье предоставляется полная информация о научной библиографии многотомника «Гейдар Алиев: Наша независимость вечна". Также отмечается, что библиография является незаменимым источником информации для профессионалов, которые изучают богатое наследие нашего общенационального лидера Гейдара Алиева.*

***"HeydarAliyev: Our independence is eternal" multivolume scientific bibliography as an important information resource in study Heydar Aliyev's heritage.***

***Abstract:****The article provides complete information about the scientific bibliography of multivolume"Heydar Aliyev. Our independence is eternal". Also it is noted that the bibliography is an indispensable source of information for professionals who are exploring the rich heritage of our national leader Heydar Aliyev.*

***Açar sözlər:*** *Heydər Əliyev irsi, müstəqilliyimiz əbədidir, biblioqrafik göstərici, informasiya resursu*

***Ключевые слова:****Наследие Гейдара Алиева, независимость вечна, библиографический указатель, информационный ресурс.*

***Keywords:*** *Heydar Aliyev's heritage, The independence is eternal, bibliography, information resource*

## Giriş

XX əsr Azərbaycan tarixinin ən qüdrətli şəxsiyyəti olan ümummilli lder Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən davamlı keyfiyyətlərinin canlı mənzərəsidir. Heydər Əliyev elə şəxsiyyətlərdəndir ki, keçdiyi həyat yoluna nəzər yetirdikdə bir xalqın dünəni, bu günü, sabahı aydın görünür. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın ən yeni tarixində məhz Heydər Əliyevin adı, şəxsiyyəti ilə bağlıdır.

## Məsələnin qoyuluşu.

Ümummilli lider Heydər Əliyevin elmə, təhsilə, mədəniyyətə böyük qayğısı hər bir azərbaycanlıya yaxşı məlumdur. O cümlədən görkəmli dövlət xadiminin

zəngin və hərtərəfli dövlətçilik irsi də öyrənilir və təbliğ edilir.

Bu cəhətdən 1997-ci ildən akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə "Azərnəşr" tərəfindən nəşr edilən "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi dahi liderin zəngin siyasi irsini özündə cəmləşdirən, həm tarixiliyi, həm məzmun etibarilə müasir Azərbaycan kitabiyyatı tarixində ən qiymətli və sanballı külliyyat kimi diqqəti cəlb edir.

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi həm tarixiliyi, həm məzmun etibarilə müasir Azərbaycan kitabiyyatı tarixində ən qiymətli və sanballı külliyyat kimi diqqəti cəlb edir. Külliyyata zəmanəmizin görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının müstəqil, dövlət quruculuğu yolunda ardıcıl və əzmkar mübarizəsini, gərgin və mürəkkəb siyasi hadisələrlə zəngin çağdaş tariximizin obyektiv mənzərəsini əks etdirən böyük ictimai-siyasi əhəmiyyətə malik çıxışları və nitqləri, bəyanat və məktubları, KİV-ə müsahibələri, eyni zamanda beynəlxalq arenadakı qətiyyətli mövqeyi, xarici dövlət rəsmiləri ilə danışıqları, bir sıra xarici dövlət və hökumət rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, beynəlxalq təşkilat rəhbərləri ilə yüksək səviyyəli görüşləri, Dağlıq Qarabağ probleminin həlli yolları ilə bağlı materiallar, tanınmış ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri ilə söhbətləri və s. materiallar daxil edilmişdir.(1, 66)

"Tərtibçi-müəllifdən" yazıda qeyd olunduğu kimi son 15 il ərzində 46 cildi işıq üzü görmüş bu nəfis, dəyərli çoxcildliyin bizə çatdırdığı tarixi gerçəklikləri, həqiqətləri tərəddüd etmədən müstəqil Azərbaycanın keçmişi, bu günü və gələcəyi adlandırmaq olar. Çünki Ulu öndər Heydər Əliyevin 1993-2003-cü illərdəki bənzərsiz çıxışları, nitqləri, müxtəlif bəyanatları, müsahibələri ölkəmizin ictimai-siyasi həyatında baş vermiş mürəkkəb, tarixi proseslərə millətini. xalqını sevən, onun gələcəyini düşünən dahi rəhbərin obyektiv və müdrik yanaşmasının nəticəsidir. Həmçinin kitabda dünya dövlətlərinin və xalqlarının həyatındakı gedişatlara Heydər Əliyevin məxsusi yanaşması da öz əskini tapmışdır (1, 65-66).

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi böyük siyasi-tarixi əhəmiyyətə malik bir toplu kimi Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasının, inkişaf etdirilməsinin sınanılmış praktiki təcrübəsini əks etdirir. Bununla yanaşı, külliyyatın elmi-nəzəri dəyəri milli dövlət quruculuğu prosesinin başlıca istiqamətlərini dəqiqliklə və uzaqgörənliklə müəyyənləşdirməyə imkan verir. Təsadüfi deyil ki, toplunun müxtəlif cildlərinə daxil edilmiş materiallarda Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi ilə yanaşı, hüquqi dövlət quruculuğu, demokratik yeniləşmə, iqtisadi islahatların aparılması, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan hərbi təcavüzünün ağır nəticələrinin aradan qaldırılması, daxili və xarici siyasətin başlıca istiqamətləri və ictimai-siyasi həyatın digər vacib məsələləri öz parlaq əksini tapmışdır.

2013-cü ildə Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar tədbirlər nəinki Azərbaycanda, habelə dost və qardaş ölkələrdə və ümumiyyətlə, azərbaycanlıların yaşadığı bütün ölkələrdə geniş şəkildə qeyd olunmuşdur. Bu



münasibətlə anım tədbirləri, konfrans və simpoziumlar, beynəlxalq əhəmiyyətli görüşlər keçirilir, sanballı əsərlər, kitablar nəşr olunmuşdur.

**Məsələnin izahı.**

Ümummilli liderin 90 illik yubileyi ilə bağlı AMEA Mərkəzi Elmi Kitabxanası tətəfindən hazırlanan "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi-biblioqrafik göstəricisi də bu qəbildəndir. Ən yaxın tariximizə gün-gün işıq tutan külliyyatın istifadəçilərinin işini asanlaşdırmaq məqsədilə, Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycan xalqının tərəqqisi və aydın sabahı naminə yorulmaz siyasi fəaliyyətinin gündəlik xronikası, zəngin və mənalı həyatının tarixi məqamlarının əks olunduğu "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" adlı külliyyata elmi biblioqrafik göstərici tərtib olunub. Biblioqrafik göstərici Heydər Əliyevin müxtəlif dövrlərə aid çıxışlarını, nitqlərini, bəyanatlarını özündə əks etdirən sanballı bir silsiləyə bibliometrik yanaşmanı cəmləşdirir. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyi üzrə ilk elmi biblioqrafik göstərici kimi hazırlanan bu nəşr sistemliliyi, əhatəliliyi, daxili strukturu ilə diqqəti cəlb edir.Göstəricinin çapı ilə əlaqədar bir sıra mənbələrdə məlumat verilmişdir (3;4;5)

2013-cü ildə "Şərq-Qərb" mətbəəsində çapdan çıxmış göstərici Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə çap olunmuşdur.

Biblioqrafik göstəricinin elmi redaktoru, akademik İsa Həbibbəyli, tərtibçi-müəllifi filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva-Kəngərlidir.

Göstəricinin 1-ci cildində "HeydərƏliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyində əks olunmuş siyasi, iictimai və sosial əhəmiyyətə malik materiallar "Dövləçilik, müstəqillik və demokratiya", Milli təhlükəsizlik", "Ordu quruculuğu", "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi", "İqtisadiyyat", "Neft strategiyası", "Aqrar siyasət", "Elm və təhsil", "Mədəniyyət, ədəbiyyat, dil, incəsənət", "Bədən tərbiyəsi və idman", "Tibb və səhiyyə", "Milli-mənəvi dəyərlər". "Qadın və ailə", "Uşaq və gənclər" bölmələrdə, 2-ci cildində isə "Dünya azərbaycanlıları", "Dövlətlərarası münasibətlər, beynəlxalq təşkilatlar", "Tarix və tarixi hadisələr", "Azərbaycanın şəhərləri və bölgələri" bölmələrdə oxucuya təqdim edilmişdir.(2)

Ümummilli lider Heydər Əliyevin Azərbaycan tarixindəki təkrarsız xidmətlərini öyrənmək üçün nəzərdə tutulan göstəricidə eyni zamanda, xüsusi bölmədə ümummilli liderimizin səhhəti ilə bağlı mütəmadi Azərbaycan ictimaiyyətini məlumatlandıran Azərbaycan Prezidentinin Mətbuat Xidmətinin məlumatlarına da yer verilmişdir. Göstəricidə eyni zamanda külliyyatın buraxılmasına məsul, akademik Ramiz Mehdiyevin sonuncu cilddə əks olunan "Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan - ümummilli lider Heydər Əliyevin qadir siyasətidir" məqaləsi və biblioqrafik göstəricinin hazırlanması layihəsinin rəhbəri akademik Akif Əlizadənin "XX əsrin qüdrətli siyasi lideri" məqaləsi də xüsusi yer tutmuşdur.

46 cildlik külliyyatda öz əksini tapmış çıxış və nitqlər, bəyanatlar, məktub və müsahibələr analitik təsvir olunaraq verilmiş və müvafiq bölmələrdə biblioqrafik göstəricidə təqdim edilmişdir. Xronoloji və sistematik struktur, informasiyaların dolğunluğu, informasiya-axtarış aparatı (şəxs adları və coğrafi adlar) üzrə göstəricilərin mövcudluğu nəşrin informativliyi və istifadə keyfiyyətini artırır.

Elektron formada da biblioqrafik göstəricinin oxucuların istifadəsinə verilməsi müxtəlif axtarış parametrlərinin genişlənməsinə, çoxistifadəliliyə, dünyanın hər yerində yaşayan azərbaycanlıların külliyyatla daha yaxından tanış olmasına zəmin yaradır.

"Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" külliyyatının elmi biblioqrafik göstəricisində ayrı-ayrılıqda bütün cildlərin (46 cild) xülasəsi verilmişdir ki, bu da öz növbəsində toplunun annovativ-referativizlənməsinə də imkan verir.

**Nəticə.**

Nəticə olaraq qeyd etmək lazımdır ki, "Heydər Əliyev.Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi-biblioqrafik göstəricisi 2 cilddə, çox nəfis tərtibatla çapdan çıxmışdır. Göstəricinin birinci cildində 1534 adda mənbəni özündə birləşdirən informasiya resursu öz əksini tapmışdır. 1-dən 1534-cü mənbəyə qədər 46 cildlikdə bölmələr üzrə verilmişdir. İkinci cild isə 1535-dən 3892-yə qədər rəqəmlər altında verilmişdir. İkinci cilddə bölmə belə başlayır: "Dünya azərbaycanlıları". Burada ümummilli liderin dünya azərbaycanlıları ilə bağlı fikri verilmişdir. Qeyd olunmuşdur ki, "Dünya azərbaycanlılarının birliyi müstəqil və azad Azərbaycan ideyalarının həyata keçirilməsində, ümummilli məqsədlərimizin möhkəmləndirilməsində, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində və dövlətçilik ənənələrimizin inkişaf etdirilməsində müstəsna əhəmiyyət kəsb edir" və digər bir fikri "Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət təşkii edir. Bu bölmədə mövcud mövzu ilə əlaqədar materiallar əlifba prinsipi ilə düzülmüşdür. Bu informasiya ilə hər iki cildlə məşğul olan oxucu eyni vaxtda külliyyatın qısa xülasəsi ilə yararlana bilir.

Burada hər iki cilddən istifadəni asanlaşdırmaq üçün informasiya axtarışı aparatı verilmişdir. Hər iki cilddə "Adlar göstəricisi" və "Coğrafi göstərici" verilmişdir. Məlum olduğu kimi, köməkçi göstəricilər həmin mənbədən istifadəni asanlaşdırmağa xidmət edir. Eyni zamanda, biz ikinci cildin axtarış imkanına baxanda burada coğrafi adlar göstəricisində fikir versək görərik ki, Azərbaycanın adı 82 dəfə, Bakıya baxsaq orda isə görərik ki, Bakıya aid mənbə 129-dur. Belə nümunələri daha da artırmaq olar. İkinci cildin "Azərbaycanın digər şəhər və bölgələri" hissəsində ulu öndərin, ümummilli liderin belə bir fikri verilmişdir ki, "Gələcək hər bir sakin, hər bir insan şəhərlər haqqında düşünsün, yaşadığı yer, küçə, ev haqqında düşünsün. Amma biz bütün respublika haqqında düşünürük və düşünməliyik". Buradan məlum olur ki, ulu öndərin bu fikri ilə hər bir gələcək nəslin, gəncin öz bölgəsi, öz doğulduğu torpağı, yeri, kəndi ilə əlaqədar hər hansı bir məlumatlı olmağını tövsiyə edir. Ümumilikdə götürdükdə isə elmi-köməkçi



xarakter daşıyan hər iki göstərici informasiya mütəxəssisləri, eyni zamanda, hər bir məktəbli, yuxarı sinif oxucusu və hər bir orta məktəb müəllimi, hər bir azərbaycanlı vətəndaş üçün çox dəyərli biblioqrafik mənbələrdən biridir. Eyni zamanda Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin iyunundan 2003-cü ilədək fəaliyyətinin salnaməsi olan çoxcildliyin köməkçi elmi biblioqrafik göstəricisi Heydər Əliyev irsini tədqiq edən alimlər üçün dəyərli bibliometrik mənbə olacaqdır.

**Ədəbiyyat**

1."Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi-biblioqrafik göstəricisi. (2 cilddə). 1-ci cild / /Layih.rəhb. A.Əlizadə, elmi red. İ.Həbibbəyli, tərt. müəl. A.Əliyeva-Kəngərli. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 632 s.
2. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi-biblioqrafik göstəricisi. (2 cilddə). 2-ci cild /Layih.rəhb. A.Əlizadə, elmi red. İ.Həbibbəyli, tərt. müəl. A.Əliyeva-Kəngərli. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 752 s.
3.http://www.azerbaijan-news.az/index.php?mod=3&id=33776 (Ümummilli lider Heydər Əliyevin zəngin irsini əks etdirən iki cilddən ibarət "Heydər Əliyev: Müstəqilliyimiz əbədidir" coxcildliyinin elmi-biblioqrafik göstəricisi çap edilmişdir / 23 Yanvar 2014
4.https://az.wikipedia.org/wiki/Müqilliyimiz_əbədidir
5.https://arxiv.az/az/az/.apa.az/677674/Heyder+Eliyevin+irsini+eks+etdiren +2+cildden +ibaret+elmi-biblioqrafik +gosterici +neshr+olunub